HAQQIN SÖZÜ – SÖZÜN HAQQI 15 İYUL 2019-CU İL/ №013 (93)

# Yeni YOL

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

2



PARTİYAZIS AZƏRBAYCANLILAR YOXSA AZƏRBAYCANLILARSIZ PARTİYALAR?

3



NƏ ƏKƏRSƏN ONU DA BİÇƏRSƏN

4



MARNEULİ BƏLƏDİYYƏSİNİN İCRA BAŞÇISI ZAUR DARĞALLININ "YENİ YOL" QƏZETİNƏ MÜSAHİBƏSİ

7



FRİDRİX BODENŞTEDTİN "ŞƏRQDƏ MİN BİR GÜN" ƏSƏRİ

## 15 İYUL – DEMOKRATİYA VƏ MİLLİ BİRLİK GÜNÜ

Bilindiyi kimi, Türkiyədə 15 iyul 2016-cı il tarixində ABŞ-ın Pensilvaniya əyalətində yaşayan Fetullah Gülenin liderlik etdiyi Fetullahçı Terror Təşkilatına (FETÖ) bağlı bir qrup tərəfindən, Türkiyə Silahlı Qüvvələri tərkibindəki FETÖ-çuların hərbi çevrilişə cəhdi olmuşdur. 240 adamın həyatını itirdiyi çevriliş cəhdi millətimizin insanlığa nümunəvi müqaviməti və dövlətimizin də digər ünsürlərinin müdaxiləsi ilə müvəffəqiyyətsizliyə uğradılmışdır.

15 İyul 2016-cı il tarixində ordu içərisində təşkilatlanmış olan FETÖ üzvləri, döyüş təyyarələri, helikopter və tanklarla qanlı bir çevriliş cəhdində oldular. Küçədə çevrilişə qarşı çıxan vətəndaşların üzərinə tanklar sürdülər. Ankara və İstanbulda, prezident, parlament, təhlükəsizlik və ictimai binaları və çevrilişə qarşı çıxan insanları döyüş təyyarələriylə bombalayan FETÖ Cümhuriyyət başçımız möhtərəm Rəcəb Tayyib Ərdoğana da sui-qəsd cəhdində olmuşdur. Çevriliş cəhdi xalqın və dövlətin digər ünsürlərinin etiraz etməsiylə müvəffəqiyyətsiz olmuşdur. Çevriliş cəhdi əsnasında 173 vətəndaş, 62 polis və 5 əsgər həyatını itirmişdir. Çevriliş cəhdində olanların hücumu zamanı 1491 nəfər yaralanmışdır.

Bu köhnəlmiş çevriliş cəhdinə fərqli düşüncədən olan cəmiyyətin bütün seqmentləri; siyasi partiyalar, peşə sahibləri, vətəndaş cəmiyyəti quruluşları, media və iş dünyası şiddətlə etiraz etmişlər. Son çevriliş cəhdində görüldüyü kimi, din pərdəsinə bürünmüş, əsgəri bir diktatorluq qurmaq istəyən FETÖ məqsədinə çatmaq üçün heç bir sərhəd, qanun və qayda tanımamaqdadır. 15 iyuldakı cəhddə silahsız və günahsız insanları acımadan öldürməyə istiqamətli hücumlar etmişdir.

FETÖ Türkiyə xaricində, xüsusilə türk və müsəlman birliklərin yaşadığı coğrafiyalarda fəaliyyətlərini bənzər üsullarla davam etdirməkdədir. Onlar dialoq, xoşgörüş kimi anlayışları istifadə edərək bir QHT-nin/təşkilatın heç bir şəkildə əlaqəsinin olmaması lazım olan strateji sahələrdə təşkilatlanmaqdadırlar. Uzun illər ərzində aldıqları təhsil və öyrəndikləri üsullarla özlərini gizləməkdə və etdiklərini heç bir şəkildə sahiblənməməkdədirlər. Təşkilat dini anlayışı, gizli gündəliyi, məqsədə çatmaq üçün hər cür üsulu istifadə edə bilməsi səbəbiylə yalnız Türkiyə üçün deyil, fəaliyyət göstərdikləri bütün ölkələr, dövlətlər və insanlıq üçün bir təhdiddir. Təşkilat iş gördüyü ölkələrdə Türkiyədə daha əvvəl həyata keçirdiyi strategiyanın olduqca bənzərini davam etməkdədir, hələlik kütlələrə "şirin" görünəcək fəaliyyətlər reallaşdırmaqdadır. Bu nöqtədə 15 iyul tarixinin xatırlanması olduqca əhəmiyyətlidir.

Bütün insanlıq dini dəyərləri öz inanclarına görə şərh edən FETÖ, İŞİD və Boko Haram kimi təşkilatlarla birgə mübarizə aparmalıdır. Xaricdəki vətəndaşlarımızın, qardaş birliklərin, demokratiyaya, milli iradəyə, insan haqlarına və azadlıqlara hörmətli bütün beynəlxalq quruluşların və fərdlərin millətimizin şanlı müqavimətinə verdiyi dəstək unudulmayacaq. Türkiyədə və vətəndaşlarımızın olduğu xarici ölkələr ilə soydaş və qohum birliklərimiz arasında 15 iyul tarixi hər il Demokratiya və Milli Birlik Günü olaraq xatırlanmaqdadır.

*Türkiyə Cümhuriyyəti Prezidentinin Əlaqələr Şöbəsi*





# PARTİYAZIS AZƏRBAYCANLILAR YOXSA AZƏRBAYCANLILARSIZ PARTİYALAR?

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Hakim "Gürcü arzusu" Partiyasının etirazçıların "2020-ci ildən seçkilərin proporsional qayda ilə keçirilməsi" tələbini qəbul etməsi bəzilərini sevindirdi, bəzilərini isə papağını qabağına qoyub düşünməyə məcbur etdi. Gələn ildən yeni qayda ilə sıfır seçki baryeri şəraitində keçiriləcək seçkilər çoxpartiyalı parlament deməkdir. Çoxpartiyalı parlament yeni yaranacaq partiyalar və siyasi təşkilatlar deməkdir. Yeni yaranacaq partiya və təşkilatlar bu partiya və təşkilatlarda milli azlıqlar deməkdir. Milli azlıqların partiya yaratması çoxluq deməkdir. Çoxluq... özünüz bilirsiniz nə deməkdir, yəni milli azlığın dönüb parlamentdə milli çoxluq olması başağrısıdır.

Son günlər sosial şəbəkələrdən tutmuş ölkə televiziyalarının veriliş və debatlarında da yeni seçki qaydasından sonra Gürcüstanda yaşayan milli azlıqların partiya yarada bilməsi, təşkilatlanması, birləşməsi, təmsil olunması məsələləri gündəmdədir. Bundan təşvişə düşənlər də var, milli damarı tutub milsiz hirslənənlər də. Hirsli başda ağıl olmaz deyiblər, əzizlərim. Gəlin əyri oturaq, düz danışaq, lap düz oturaq, düz danışaq.

Əvvəla, Gürcüstan Konstitusiyası, daha doğrusu onu yazanlar, dəyişikliklər daxil edənlər regional bölgü və etnik mənsubiyyətə görə partiya yaratmağı qadağan edir(lər). (Oxu: Konstitusiyamız bizə partiya yaratmağı qadağan edir). İkincisi də, lap qadağan olmasa belə biz bir partiya yaradıb onun ətrafında birləşə bilmərik. Yəni narahatçılığa heç bir əsas yoxdur, vətəndaşlar. Belə bir fürsət olsa belə, partiya ətrafı qalsın bir yana, bir fikir ətrafında belə birləşə bilmərik, çünki hər kənddə, hər şəhərdə yaşayan bir nəslə, bir tayfaya bir və bəzən bir neçə partiya yaradıb bir-birimizlə mübarizə aparacağıq – eqo mübarizəsi, paxıllıq mübarizəsi, qohumbazlıq, yerlibazlıq və sair və ilaxır bazlıq mübarizəsi. Hələ mən partiyadaxili davaları demirəm (müqayisə et: ailədaxili münaqişələr). Bir də ki, birləşmək üçün gərək elə partiyamı ola, təşkilatmı ola, kabinetmi ola, ofismi ola?!. Birləşən elə bunlarsız da birləşər. Axı tarix boyu insanlar ruhən bir fikirdə, ideyada birləşiblər, cismən isə meydanlarda.

Bu yazı bir növ ötən sayda dərc olunan yazının davamıdır. Ötən yazıda da qeyd etdiyim kimi, millət olaraq, lap icma olaraq üşüdüyümüz zaman ətrafına toplaşıb qızınmağa vahid bir ideologiyamız belə yoxdur. Pərən-pərən olmuşuq. Onun-bunun ocağının qırağında qızınırıq. Bu onun-bunun ocağında qızınanları belə birləşdirmir milli kəndirlər. Axı niyə? Axı bu kəndirləri kəsən nədir? Vəzifəmi, var-dövlətmi, şöhrətmi? Niyə biz ruhumuzu vəzifə ilə, var-dövlətlə, şöhrətlə meditasiya edərək alidən faniyə doğru kamilləşdiririk? Axı heç kəs Ölməz Kaşey deyil.

Belə ki, hörmətli həmvətənlilər, təşvişə düşmək, qorxmaq lazım deyil. Gürcüstan azərbaycanlıları heç vaxt birləşib partiya yaradan deyil, nə də partiya yaradıb birləşən deyil, istər proporsional qayda olsun, istərsə də mənfi sıfır baryer. Sizcə bu yazıya başlıq olaraq partiyasız azərbaycanlılar yoxsa azərbaycanlılarsız partiyalar yazsaq düzgün olar? Bəlkə elə hər ikisi?..

## Aİ ŞURASININ PREZİDENTİ: "ŞƏRQ TƏRƏFDAŞLIĞI" ÖLKƏLƏRİ İLƏ ƏMƏKDAŞLIQ DAHA DA GÜCLƏNDİRİLƏCƏK"



"Avropa İttifaqı "Şərq tərəfdaşlığı"-na üzv ölkələrlə əməkdaşlığı daha da gücləndirəcək". Bu barədə Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk Batumidə "Şərq tərəfdaşlığı" proqramının 10 illik yubileyinə həsr olunan beynəlxalq konfransda çıxışı zamanı bildirib.

O deyib ki, tərəfdaş ölkələrlə siyasi və iqtisadi inteqrasiyanın davam etdirilməsi və daha da gücləndirilməsi üçün yeni imkanlar nəzərdən keçiriləcək: "Əməkdaşlığın daha da güclü olması üçün dövlətlərlə yanaşı, vətəndaş cəmiyyəti və biznes ictimaiyyətinin də dəstəyi tələb olunur. "Şərq tərəfdaşlığı" proqramının uğurlu olmasını gündəlik həyat təsdiq edir".

Qeyd edək ki, "Şərq tərəfdaşlığı" ("European neighbourhourd") proqramı Avropa İttifaqının layihələrindən biridir. Proqram 2008-ci il mayın 7-də qurumun Praqada keçirilən sammitində qüvvəyə minib. Layihə Polşa və İsveç tərəfindən irəli sürülüb. Proqram Avropa İttifaqı və altı tərəfdaş ölkə (Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova və Ukrayna) ilə münasibətlərin gücləndirilməsi üçün yeni təşəbbüsdür. Şərq tərəfdaşlığının əsas hədəfi 6 post-sovet respublikasının Avropa İttifaqına daha da yaxınlaşdırmaq, sabitlik, yaxşı idarəçilik və iqtisadi inkişafı təşviq etməkdir. Bu təşəbbüs demokratiya, qanunun aliliyi, insan hüquqlarına və əsas azadlıqlara hörmət, bazar iqtisadiyyatı və davamlı inkişaf kimi ümumi dəyərlərə əsaslanır.

## NATİA TURNAVA: RUSİYANIN EMBARQOSU GÜRCÜSTANA 4 MİLYARD LARİ ZƏRƏR VURA BİLƏRDİ



"Rusiyanın Gürcüstana embarqo tətbiq etməsi nəticəsində ölkəmiz 4 milyard lari itirə bilərdi". Bu sözləri Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Natia Turnava jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, ilk növbədə turizm sektoruna 750 milyon dollar məbləğində ziyan dəyə bilərdi.

"Biz ilin sonuna turizmdən 1,5 milyard dollardan çox gəlir götürməyi proqnozlaşdırmışıq. Digər zərbə Rusiyadan gələn pul köçürmələri ilə bağlı olardı. Ötən il Rusiyadan ölkəmizə 600 milyon dollar pul köçürülüb. Bu il də belə bir rəqəm gözləyirdik. Eyni zamanda, kənd təsərrüfatı məhsulları, şərab və mineral suların ixracı nəticəsində 300 milyon dollar gəlir götürməyi nəzərdə tutmuşuq", - deyə N.Turnava bildirib.

Qeyd edək ki, Rusiya parlamentinin aşağı palatası Gürcüstana qarşı məhdudiyyət tədbirlərinin tətbiq edilməsi təşəbbüsü ilə çıxış etmişdi. Rusiya prezidenti Vladimir Putin Gürcüstana sanksiyaların tətbiq olunmasına qarşı çıxıb. İyulun 8-dən isə Rusiya ilə Gürcüstan arasında birbaşa aviareyslər V.Putinin fərmanına əsasən qadağan edilib.

## TORPAĞIN QEYDİYYATI REFORMASI 2020-Cİ İLİN 1 YANVARINA QƏDƏR DAVAM EDƏCƏK




Torpağın qeydiyyatı reforması 2020-ci ilin 1 yanvarına qədər davam edəcək. Dəyişiklik Gürcüstan qanunvericiliyinə daxil edilib.

Torpaq qeydiyyatı reforması çərçivəsində vətəndaşların əmlak hüququnu qeydiyyat etmək üçün lazım olan bütün prosedurlara uyğun ərizə və çertyoj təqdim etməsindən sonra Milli İctimai Reyestr Agentliyi özü həyata keçirir.

Reforma çərçivəsində vətəndaşlara sonrakı xidmətlər pulsuzdur: İctimai Reyestr tərəfindən qeydiyyat prosesində sənədlərin axtarışı və sistemləşdirilməsi; Notarius tərəfindən razılaşmaya tərəflərin imzasının təsdiqlənməsi; Torpaq sahəsi ilə bağlı hüququn tanınması; Faktların təsdiq edilməsi; Torpaq sahəsinə əmlak hüququnun ilkin qeydiyyatı; Qeyri-dəqiq kadastr göstəriciləri ilə qeydiyyat edilmiş torpaq sahəsinin dəqiqləşdirilməsi, notariusun mediasiyası.

Torpaq sahəsinin qeydiyyatı üçün vətəndaşlar Ədliyyə Evlərinə, İctimai Reyestrin filiallarına və İctimai Mərkəzlərə müraciət edə bilərlər.

Qeyd edək ki, torpağın qeydiyyatı reforması 2016-cı ilin 1 avqustundan qüvvəyə minib. İndiyə kimi 678 mindən çox ərizə uğurla qeydiyyat edilib.

## GÜRCÜSTAN GƏNCLƏRİNƏ YARDIM VƏ MAARİFLƏNDİRMƏ TƏŞKİLATININ HEYƏTİ MARNEULİ BÖLGƏSİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN BİR SIRA TƏŞKİLAT RƏHBƏRİ İLƏ GÖRÜŞÜBLƏR



Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının (GYMD) sədri Musa Hacıyev, təşkilatın əməkdaşları Hacı Bəkiroğlu və Elsevər Əhmədov Marneuli bölgəsində fəaliyyət göstərən bir sıra təşkilat rəhbəri ilə görüşüblər. Heyət ilkin olaraq Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin icraçı direktoru Aygül İsayeva ilə görüşüb.

Daha sonra Yaradıcı Gənclər Akademiyasının icraçı direktoru Camal Məmmədovla və Yeni Düşüncə İnstitutunun idarə heyətindən Kamran Əfəndiyev və Ariz Daşdəmirovla görüş keçiriblər. Hər üç görüşdə də təşkilatların fəaliyyətləri haqqında məlumatlar verilib və əməkdaşlıq məsələləri müzakirə olunub.

Qonaqlar təşkilatın nəşr etdirdiyi kitablardan hər üç təşkilata xatirə olaraq hədiyə ediblər.

## İQTİSADİYYAT NAZİRİ: "GÜRCÜSTANDA QAZLAŞDIRMA SƏVİYYƏSİ 85%-Ə ÇATDIRILACAQ"



Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Natia Turnavanın bildirdiyinə əsasən, Gürcüstanda qazlaşdırma səviyyəsi 85 faizə çatdırılacaq. Onun sözlərinə görə, dövlət büdcəsi hesabına üçillik qazlaşdırma planının həyata keçirilməsi davam etdirilir.

"Plan çərçivəsində 226 yeni yaşayış məntəqəsi qazlaşdırılacaq, Gürcüstanın qazlaşdırılma səviyyəsi isə 85 faizə çatdırılacaq", - deyə nazir bildirib.

Qeyd edək ki, 2019-2022-ci illərdə həyata keçiriləcək qazlaşdırma planına dövlət büdcəsindən 210 milyon lari həcmində investisiya ayırılıb.

## MİXEİL GİORQADZE İSTEFA VERİB



Gürcüstanın təhsil, elm, mədəniyyət və idman nazirinin birinci müavini Mixeil Giorqadze vəzifəsini tərk edib. O, bu barədə özünün "Facebook" səhifəsində yazıb.

M.Giorqadze yeni insanlar və yeni enerjiyə yer verməyin vaxtı olduğunu bildirib.

O, özəl sektorda fəaliyyətini davam etdirəcəyini vurğulayıb.

Qeyd edək ki, M.Giorqadze ötən ilin iyulunda təhsil, elm, mədəniyyət və idman nazirinin müavini vəzifəsinə təyin edilib. O, 2014-2017-ci illərdə Gürcüstanın mədəniyyət və abidələrin mühafizəsi naziri, 2017-2018-ci illərdə isə mədəniyyət və idman naziri olub.

## TİCARƏT VƏ SƏNAYE PALATASININ PREZİDENTİ DƏYİŞİB



Gürcüstanın Ticarət və Sənaye Palatasının prezidenti dəyişib. Giorgi Pertaia palatanın şurasında səs çoxluğu ilə yeni prezident vəzifəsinə seçilib. O, bu vəzifədə Nino Çikovanini əvəzləyib.

Qeyd edək ki, G.Pertaia 2011-2012-ci illərdə Gürcüstanın biznes ombudsmanı, 2012-2016-ci illərdə Milli İnvestisiya Agentliyinin direktoru olub.

## "TBC BANK"IN TƏSİSÇİSİ İCTİMAİ HƏRƏKAT YARADIR



"TBC Bank"ın təsisçisi Mamuka Xazaradze ictimai hərəkat yaradır. Bu barədə M.Xazaradze özünün "Facebook" səhifəsində yazıb.

O bildirib ki, yeni hərəkat bu ilin sentyabr ayında təsis olunacaq: "Dostlar, həmkarlar və müxtəlif sahələrin peşəkarları ilə birgə ictimai hərəkat yaradılacaq. Təşkilatın əsas məqsədi ölkənin birləşdirilməsi, onun müstəqillik və azadlığının qorunmasıdır".

## NƏ ƏKƏRSƏN ONU DA BİÇƏRSƏN



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

Bir zamanlar yer üzündə sadəcə cinlər və mələklər yaşayarmış. Sonra Allah insanı xəlq edir. Allah insanı yaratmazdan əvvəl onun ruhunu yaradır və ona "Sən kimsən, mən kiməm" deyə sual verir. Qalu-bələ deyilən bu zamanda insan ruhu "Sən yaradansan, mən isə qulam" deyərək acizliyini bəyan edir. Ancaq gəl gör ki, dünyaya gəldikdən sonra verdiyi söz qalsın bir yana, heç onu yaradanı belə xatırlamır. Ona verilən az müddətdəki ömrün belə bir gün sonlanacağını unudaraq əbədi yaşayacaqmış kimi hərəkət edir. Allah Qurani-Kərimdə "Mən insanları və cinləri ancaq mənə ibadət etsinlər deyə yaratdım" (Zariyat, 56) deyə buyurur. Digər bir ayədə isə "Səcdə et və yaxınlaş" (Ələq, 19) deyə insana xitab edir. Ancaq nə yazıq ki, insanoğlu ona əmr olunan ibadəti xatırlamaq belə istəmir. Zamanım yoxdur və ya mən bacara bilmirəm deyib canını qurtarmağa çalışır. Bacara bilmirəm deyənlərə cavab olaraq isə Allah yenə başqa bir ayədə "Allah insana bacara bilməyəcəyi yükü yükləməz" (Bəqərə, 286) deyə cavab verir.

İnsanlar bu dünyada özlərini başıboş zənn edirlər. Ancaq Allah insanların söz və davranışlarını qeyd etməklə vəzifəli olan "qiymətli, şərəfli, dürüst yazıçılar" mənasında "Kiramən-katibin" deyilən mələklər təyin etmişdir. Qurani-Kərimdə bu mələklərdən belə bəhs edilməkdədir: "Halbuki sizi hər an müşahidə edən, etdiyiniz hər şeyi bilən və qeydə alan qiymətli mələklər vardır" (İnfitar, 82/10-12). Bu ayələr qiyaməti inkar edənlərə, o gün Allaha hesab verəcəklərini xatırlatmaqda və etdikləri hər şeyin mütləq yazıldığını bildirməkdədir. Yenə Quranda belə buyurulmaqdadır: "And olsun ki insanı biz yaratdıq, nəfsinin özünə pıçıldadıqlarını da biz bilərik. Çünki biz ona şah damarından daha yaxınıq. Onun sağında və solunda oturmuş iki mələk hər şeyi qeyd etməkdədir. İnsan elə bir söz söyləyə bilməz ki, yanında müşahidə edib yazmağa hazır olan bir mələk olmasın" (Qaf, 50/16-18). Bu ayələrdə insanların öz aralarında qurduqları və kimsənin xəbərdar olmadığını zənn etdikləri hər cür tərtib və gizli danışmaların qeyd altına alındığı və qısacası Allahdan heç bir şeyin gizli qalmayacağı ifadə edilməkdədir.

Ancaq nədənsə insan yenə də nəfsinə uyaraq dünya malı yığmaq uğruna onu Yaradanı, Yaradana verdiyi sözü unudaraq davamlı bir qaç-qov halındadır. Heç gözləmədiyi bir anda nəfsinin kəsiləcəyini xatırlamaq istəmir. Düşünmək istəmir ki, axıb gedən hər dəqiqə, hər saniyə onu bir addım daha sona yaxınlaşdırır. O son ki, orada yenə onu Yaradana hesab verəcək, verdiyi söz ona xatırladılacaq. Kiramən-katibin mələklərinin yazdıqları əməllər bir film səhnəsi kimi onun gözünün önünə gətiriləcək.

Ölümün hər an qapımızı döyəcəyini ağlımızdan belə keçirmirik. Halbuki Peyğəmbər (s.ə.s.) "Ləzzətləri yox edəni (yəni ölümü) çox xatırlayın" (Tirmizi, Zühd, 4) buyurmuşdur.

O halda yaradılış məqsədini unutmamaq, axirətdə qazana bilmək üçün ölümü yaddan çıxarmamaq gərəkdir. Və unutmamaq lazımdır ki, ölüm bir yoxluq meydana gətirmir, bizi bizdən daha çox sevən Rəbbimizə qovuşmanın ilk addımı, sonsuz həyatımızın başlanğıcıdır. O həyat ki, yaxşılığın mükafatı Cənnət, pisliyin qarşılığı isə Cəhənnəmdir. Ancaq yuxarıda da bəhs etdiyimiz Kiramən-katibin mələkləri edilən yaxşılığa on qat savab, edilən pisliyə isə bir günah yazmaqla vəzifəlidirlər. Allah burda da insanlara kömək etmək istəyir ki, qulları əzaba getməsinlər. Ancaq biz insanlar yenə də öz inadımızdan dönməyərək bildiyimizi tutmaqda qərarlıyıq.

Bir sözlə, kim nə edirsə öz gələcəyi üçün edir. Ancaq onu da bilməliyik ki, dünya axirətin tarlasıdır. Dünyada nə əkərsək axirətdə onu biçəcəyik.

# MARNEULİ BƏLƏDİYYƏSİNİN İCRA BAŞÇISI ZAUR DARĞALLININ "YENİ YOL" QƏZETİNƏ MÜSAHİBƏSİ



**– Salam, Zaur bəy. Gec də olsa Marneuli meri seçilməyiniz münasibəti ilə təbrik edirik və fəaliyyətinizdə uğurlar diləyirik!**

– Çox sağ olun. Təşəkkür edirəm.

**– Siz uşaqlıqdan Marneulidə yaşamısınız və bildiyimiz kimi müxtəlif QHT-lərdə fəaliyyət göstərmisiniz, Marneulini, marneuliləri və onların problemlərini yaxşı tanıyırsınız. Bəs meriyanın binasından, yeni kabinetinizdən Marneuli, onun əhalisi, problemləri necə görsənir?**

– Marneuli Gürcüstanın ən böyük bələdiyyələrindən biridir. Əlbəttə, bələdiyyənin çətinlikləri var. Bir çox planlarımız var ki, üzərində çalışırıq. Bu isti yayın özündə onlarla layihəmiz artıq həyata keçməyə başlayıb. Fəal şəkildə çalışırıq ki, bu problemlər həll olunsun. Bir çox planlarımız, bir çox yeniliklərimiz var və bunların hamısı yaxın vaxtlarda, 2019-2020-ci illərdə həyata keçiriləcək.

**– İlk olaraq həllinə çalışdığınız məsələlər hansılardır və bu qısa müddət ərzində artıq hansı işlər həyata keçirilib?**

– Hazırda bütün işləri vətəndaşlarla ünsiyyətə, vətəndaşların qəbuluna yönəltmişəm. Həmçinin şəhərin abadlaşdırılması, bütün parkların təmir olunması, yenilənməsi məsələsi üzərində işçi qrupu yaratmışıq. Əhalini də cəlb edəcəyik ki, müsabiqə keçirilsin və istirahət məkanlarına önəm verək. Şəhərdə zibil qutularının dəyişdirilməsi, mərkəzi küçənin işıqlandırılmasının yenilənməsi işləri, eləcə də kəndlərdə geniş layihələr həyata keçirəcəyik. 2020-ci ilə qədər bir çox işlər etməyi düşünürük. Algeti ərazi vahidliyində içməli su problemi həll olunmalıdır. 2019-cu ilin sonu, 2020-ci ilin əvvəli bu layihənin həyata keçirilməsini nəzərdə tuturuq. Bir çox böyük plan və layihələr var. Düşünürəm ki, 2021-ci ilə qədər bir çox işləri çatdıra biləcəyik.

**– Marneuli sakinlərini narahat edən problemlər çoxdur. Bilirik ki, Marneuli kənd təsərrüfatı regionudur. Regionda suvarma suyu, kanalizasiya xətlərinin olmaması kimi vacib problemlər var. İnfrastrukturun inkişafı baxımından yaxın gələcəkdə nələr nəzərdə tutulur?**

– Suvarma suyu ilə bağlı Dövlət Meliorasiya Xidməti çalışır. Bu, əsasən onların səlahiyyətinə daxildir. Buna baxmayaraq, biz də əhalinin ehtiyacına görə Meliorasiya Xidmətinə yardım edirik. Mən işə başladığım ilk həftədə Meliorasiya Xidmətinin rəhbərliyi ilə görüşdüm və onlar bizə Marneuli ərazisində bir neçə layihə ilə bağlı planlarını təqdim etdilər. Layihə Marneulidə suvrama suyu probleminin həllinə yönəlib. Biz də, qeyd etdiyim kimi, bələdiyyə olaraq qeyd olunan layihələrin həyata keçirilməsində iştirak edə bilərik ki, problem tez həllini tapsın. Çünki bizim əhali üçün kənd təsərrüfatının inkişafı çox önəmlidir. Mən indi simvolik olaraq kəndlərə də gedirəm, özüm əhali ilə görüşürəm, həmçinin fəal şəkildə beynəlxalq investorların iştirak etdiyi forumlara qatılıram. İştirak etdiyim forumlardan birində maraqlanan investorlar oldu və Dövlət Aqrar və Ticarət Şirkətinin nümayəndələri Azərbaycandan Marneuliyə gəldilər. Mən onları yerində vəziyyətlə tanış etdim ki, kənd təsərrüfatına dəstək olaq. Mərkəzi hakimiyyət də fəal çalışır ki, problem öz həllini tapsın.

**– Seçkiqabağı proqramınızda xüsusi yer tutan prioritetlərdən biri uşaq bağçaları idi. Bildiyimiz kimi Marneulidə uşaq bağçalarının az olmasına görə çox sayda uşaq bağçaya gedə bilmir. Bu məsələnin həlli ilə bağlı planlarınız nədir?**

– Uşaq bağçaları ilə bağlı da işlər aparırıq. Mən seçkiqabağı dövrdə də qeyd etmişdim ki, ən azı hər bir inzibati vahiddə bir uşaq bağçası inşa olunmalıdır. Bu məsələ ilə bağlı da artıq planlarımızı qeyd etməyə başlamışıq. Mərkəzi hakimiyyət tərəfindən də dəstək olacaq. Mövcud olan uşaq bağçaları bərpa ediləcək, yeniləri inşa olunacaq. Çalışıram ki, bu gün uşaq bağçalarında işləyənlərin əmək haqqı 40% artırılsın. Yay ərəfəsində bunu etməyi düşünürük. Bu, bizim üçün prioritetdir ki, onlar uşaqlara daha da həvəslə xidmət göstərsinlər. Kəndlərdə mütləq mərhələli şəkildə uşaq bağçaları inşa olunacaq.

**– Gənc mer olaraq gənclərin inkişafı üçün nə etməyi düşünürsünüz? Kəndlərdə yaşayan gənclər üçün maarifləndirici, əyləncəli məkanların olmaması, kitabxanaların fəaliyyət göstərməməsi illərdir ki, problem olaraq qalır. Mərkəzdə və kəndlərdə gənclər üçün hansı dəyişikliklər gözlənilir?**

– Hazırda gənclərin inkişaf proqramı üzərində çalışırıq. Meriyanın özünün gənclər siyasəti və bu siyasətə uyğun olaraq da iş planı mövcud olacaq. Biz çalışacağıq ki, gəncləri meriyanın işinə qoşaq və onların işlə təmin olunmasına təkan verək.

**– Bildiyimiz kimi nəqliyyatla bağlı bələdiyyədə problemlər var. Nəqliyyat olmadığına görə kəndlərdə yaşayan gənclər axşam saatlarında mərkəzdə keçirilən tədbirlərə qatıla bilmirlər.**

– Nəqliyyatla bağlı Marneulidə ciddi problemlər var. Nəqliyyat bizim üçün böyük çağırışdır. Bunun üzərində çalışırıq ki, ilin sonuna kimi Marneuliyə yetərli sayda nəqliyyat cəlb edək. Bələdiyyə nəqliyyatı problemi həll olunmalıdır. Əlbəttə, həm şəhər daxili, həm də kəndlərə gedən nəqliyyatdan söhbət gedir. Yeni nəqliyyat olanda biz artıq yeni standartlarla əhalinin qarşısına çıxacağıq – həm çalışma saatı uzadılsın, həm də maksimum rahatçılıq təmin edilsin.

**– Kəndlərdə yaşayan gənclərin əksəriyyəti mərkəzdəki proseslərə qoşula bilmir və mərkəzdəki xidmətlərdən istifadə edə bilmir. Kəndlərin özündə hansı layihələri həyata keçirməyi düşünürsünüz?**

– Mən Mədəniyyət Evinin rəhbərliyi ilə görüşdüm. Biz yeni bir konsepsiya üzərində düşünürük. Kəndlərdə multifunksional mədəniyyət evlərinin inşa olunmasını istəyirik. Əlbəttə, büdcə və infrastruktur problemlərinə görə bunun üçün müəyyən vaxt lazım olacaq. Çünki mərhələli şəkildə həyata keçirilməlidir. Bu gün əhalini əsas narahat edən yol, su problemləri var. Ciddi irəliləyiş də var. Yaxında vətəndaşlar da bunu hiss edəcəklər. Ancaq buna baxmayaraq, biz kəndlərdə gənclərin məşğuliyyəti üçün müəyyən işlər görəcəyik.

**– Yeni fəaliyyətə başladğınızda ilk təşəbbüslərinizdən biri şəhərin gecə saatlarında təmizlənməsi oldu. Bu kimi yeni təşəbbüsləri sakinlər daha hansı sahələrdə gözləməlidirlər?**

– Təşəbbüslərimiz çoxdur. Biz indi kommunal xidmətin gücləndirilməsi üzərində çalışırıq. Bilirsiniz ki, kommunal xidmət şəhər və kəndlərdə yalnız zibil yığmaq işləri ilə məşğul olmamalıdır, həm də abadlaşdırma işlərində iştirak etməlidir. Briqadalar yaradacağıq ki, şəhərin yaşıllaşdırma işləri ilə məşğul olsunlar. Bununla yanaşı yeniliklərimiz çoxdur. Bu gün əhalinin rahat şəkildə bələdiyyə ilə ünsiyyət qura bilməsi üçün çalışırıq.

**Söhbətləşdi: Aynurə ƏLİYEVA**

# მარნეულის მუნიციპალიტეტის მერის, ზაურ დარგალის ინტერვიუ გაზეთ „იენი იოლთან“

*– გამარჯობა, ბატონო ზაურ. გვიანიც რომ იყოს, მაინც გილოცავთ მარნეულის მერობას და საქმიანობაში წარმატებებს გისურვებთ!*

– დიდი მადლობა.

*– თქვენ ბავშობიდანვე მარნეულში ცხოვრობთ და როგორც ვიცით, სხვადასხვა არასამთავრობო ორგანიზაციაშიც გიმუშავიათ. მარნეულს, მარნეულელებს და მათ პრობლემას უკეთ იცნობთ. მერიის შენობიდან, ახალი კაბინეტიდან მარნეული, მისი მოსახლეობა და პრობლემები როგორ ჩანს?*

– მარნეული საქართველოს ყველაზე დიდი მუნიციპალიტეტებიდან ერთ-ერთია. რა თქმა უნდა, მუნიციპალიტეტს თავისი სირთულეებიც აქვს. ბევრი გეგმა გვაქვს, რომელიც ვმუშაობთ. ამ სიცხიან ზაფხულშიც ათობით პროექტი ხორციელდება. აქტიურად ვმუშაობთ, რომ ეს პრობლემები მოგვარდეს. ბევრი გეგმები, ბევრი სიახლეები გვაქვს და ეს ყველაფერი ახლო მომავალში, 2019-2020 წლებში განხორციელდება.

*– რომლებია პირველადი პრობლემები , რომელიც მოგვარებას ცდილობთ და ამ მოკლე პერიოდში რაც თანამდებობაზე დაინიშნეთ, რომელი საქმეები განხორციელდა?*

– ახლა ყველა სამუშაოები მოსახლეობასთან კომუნიკაზიაზე, მოქალაქეების მიღებაზეა მიმართული. ასევე ქალაქის კეთილდღეობაზე, ყველა პარკის რეაბილიტაციაზე, განახლებაზე. სამუშაო ჯგუფი შევქმენით და ვმუშაობთ. მოსახლეობასაც ჩავრთავთ რომ კონკურსი გამოცხადდეს და დასასვენებელ ადგილებს მივანიჭოთ უპირატესობა. ქალაქში ნაგვის ურნების განახლება, ცენტრალური ქუჩის განათება. ასევე გვაქვს გეგმები, რომ სოფლებშიც მასშტაბური პროექტები განვახორციელოთ. 2020 წლამდე ბევრი საქმის გაკეთებას ვფიქრობთ. ალგეთის ერთეულში სასმელი წყლის პრობლემაა მოსაგვარებელი. 2019 წლის ბოლო 2020 წლის დასაწყისში ამ პროექტის განხორციელებას ვგეგმავთ. ვფიქრობ, 2021 წლამდე ბევრ საქმეს მოვასწრებთ.

*– მარნეულელებს ბევრი პრობლემა აწუხებთ. ვიცით, რომ მარნეულის სოფლებში მოსახლეობის უმეტესობა მეურნეობით არის დაკავებული. მუნიციპალიტეტში არსებობს პრობლემები როგორიცაა სარწყავი წყალი, საკანალიზაციო სისტემა. რა იგეგმება ინფრასტრუქტურის განვითარების კუთხით ახლო მომავალში?*

– სარწყავ წყალთან დაკავშირებით სახელმწიფო, მელორაციის სამსახური მუშაობს. ეს ძირითადად მათ კომპეტენციაში შედის. მიუხედავად ამისა, ჩვენ მოსახლეობის საჭიროებებიდან გამომდინარე მელორაციის სამსახურს ვეხმარებით. მე პირველივე სამუშაო კვირას შევხდი მელორაციის სამსახურს და მათ წარადგინეს მარნეულში არსებული რამდენიმე პროექტთან დაკავშირებული გეგმა. პროექტი მარნეულში სარწყავი წყლის მოგვარებაზეა ორიენტირებული. ჩვენც, როგორც მუნიციპალიტეტმა შეგვიძლია აღნიშნული პროექტის განხორციელებაში მივიღოთ მონაწილეობა, რომ პრობლემა მალე მოგვარდეს. რადგან ჩვენი მოსახლეობისთვის სოფლის მეურნეობის განვითარება ძალიან მნიშვნელოვანია. მე ახლა სიმბოლურად სოფლებშიც მივდივარ. მოსახლეობას ვხდები, ასევე საერთაშორისო ინვესტორებთან ერთად აქტიურად ვესწრები ფორუმებს. ერთ-ერთ ფორუმზე, რომელიც ვიღებდი მონაწილეობას დაინტერესებული ინვესტორები აღმოჩნდნენ და სახელმწიფო აგრარული და სავაჭრო კომპანიის წარმომადგენლები აზერბაიჯანიდან მარნეულში ჩანოვიდნენ. მე ადგილზე სიტუაცია გავაცანი მათ, რათა სოფლის მეურნეობას მხარი დავუჭიროთ. ცენტრალური ხელისუფლებაც პრობლემის მოსაგვარებლად აქტიურად მუშაობს.

*– თქვენს წინასაარჩევნო პროგრამაში ძირითადი ადგილებიდან ერთ-ერთს საბავშვო ბაღების საკითხი იკავებდა. როგორც ვიცით, მარნეულში საბავშვო ბაღების არასაკმარისი რაოდებობის გამო, ბევრი ბავშვი ვერ იღებს სკოლამდელ განათლებას. ამ საკითხის მოსაგვარებლად რა გეგმები გაქვთ?*

– საბავშვო ბაღებთან დაკავშირებითაც სამუშაოები მიმდინარეობს. მე წინასაარჩევნო პერიოდშიც აღვნიშნე , რომ ყველაზე მინიმუმი - თითო ტერიტორიულ ერთეულში ერთი ბაღი მაინც უნდა აშენდეს. ამ საკითხთან დაკავშირებით უკვე გეგმების ჩანიშვნა დავიწყეთ. ცენტრალური ხელისუფლების მხრიდანაც იქნება მხარდაჭერა. არსებული საბავშვო ბაღების რეაბილიტაცია ჩატარდება და ახლებიც აშენდება. ვცდილობ, რომ დღეს საბავშვო ბაღების თანამშრომლების ხელფასი 40%-ით გავზარდო. საზაფხულო პერიოდში ამაზე ვფიქრობთ. ჩვენთვის პრიორიტეტია , რომ ისინი ბავშვებს უფრო მეტად გულით მოემსახურონ. სოფლებში აუცილებლად აშენდება საბავშვო ბაღები ეტაპობრივად.

*– როგორც ახალგაზრდა მერი, ახალგაზრდების განვითერებისთვის რისი გაკეთებაზე ფიქრობთ? სოფლად მცხოვრები ახალგაზრდებისთვის საგანმანათლებლო და გასართობი ადგილების არ არსებობა, ბიბლიოთეკების უფუნქციონირება წლებია პრობლემად რჩება. ცენტრში და სოფლებში ახალგაზრდებისთვის როგორი ცვლილებებია მოსალოდნელი?*

– ამჟამად ახალგაზრდების განვითარების პროგრამაზე ვმუშაობთ. მერიას თავისი ახალგაზრდების პოლიტიკა ექნება და ამ პოლიტიკის მიხედვით სამუშაო გეგმა იარსებებს. ჩვენ შევეცდებით რომ ახალგაზრდებიც ჩავრთოთ მერიის საქმიანობაში და მათ დასაქმებას ხელი შევუწყოთ.

*– როგორც ვიცით, საზოგადოებრივ ტრანსპორტთან დაკავშირებით პრობლემები არსებობს. ტრანსპორტის არ არსებობის გამო, სოფლებში მცხოვრები ახალგაზრდები საღამოს საათებში ცენტრში ჩატარებულ ღონისძიებებს ვერ ესწრებიან.*

– ტრანსპორტთან დაკავშირებით მარნეულში სერიოზული პრობლემები არსებობს. ტრანსპორტი ჩვენთვის პრიორიტეტული საკითხია. ამაზე ვმუშაობთ, რომ წლის ბოლომდე მარნეულში საჭირო რაოდენობის ტრანსპორტი იყოს. მუნიციპალური ტრანსპორტის საკითხი უნდა მოგვარდეს. რა თქმა უნდა, ქალაქში და სოფლებშიც მომუშავე ტრანსპორტზე ვსაუბრობთ. ახალი ტრანსპორტი როცა იქნება ჩვენ უკვე ახალი სტანდარტებით გამოვალთ მოსახლეობის წინაშე- სამუშაო საათებიც უნდა გაიზარდოს და მოსახლოებისთვის კომფორტიც უნდა შევქმნათ.

*- სოფლადმცხოვრები ახალგაზრდების უმეტესობა ცენტრში მიმდინარე პროცესებში ვერ ერთვება და ცენტრში არსებული სერვისებით ვერ სარგებლობს. სოფლებში რომელი პროექტების განხორციელებაზე ფიქრობთ?*

– მე კულტურის სახლის უფროსობას შევხდი. ჩვენ ახალ კონცეფციაზე ვფიქრობთ. გვინდა, რომ სოფლებში მულტიფუნქციური კულტურის სახლები აშენდეს. რა თქმა უნდა, ბიუჯეტის და ინფრასტრუქტურის პრობლემების გამო ამას დრო დასჭირდება. იმიტომ, რომ ეტაპობრივად უნდა განხორციელდეს. დღეს მოსახლეობას ძირითადად გზის, სასმელი წყლის პრობლემა აწუხებს. სერიოზული წინსვლაც არის. ახლო მომავალში ამას მოქალაქეებიც იგრძნობენ. მაგრამ მიუხედავად ამისა, ჩვენ სოფლებში ახალგაზრდებისთვის საქმეს გავაკეთებთ რომ დაკავდნენ.

*– პირველი ინიციატივა თქვენი საქმიანობის დაწყებისას ქალაქის ღამის საათებში დასუფთავება იყო. სხვა ინიციატივებს მოსახლეობა რომელ სფეროებში უნდა ელოდოს?*

– ინიციატივები ბევრი გვაქვს. ჩვენ ახლა კომუნალური სამსახურის გაძლიერებაზე ვმუშაობთ. როგორც იცით, კომუნალური მომსახურეობა მხოლოდ ქალაქიდან და სოფლებიდან ნაგვის გატანა არ არის. მათ ასევე კეთილმოწყობის საქმეებშიც უნდა მიიღონ მონაწილეობა. ბრიგადები უნდა შევქმნათ, რომ ქალაქის გამწვანებაზე და მოვლა- პატრონობაზე იმუშაონ. ამასთან ერთად სიახლეები ბევრი გვექნება. დღეს ჯერ იმაზე ვმუშაობთ, რომ მოსახლეობამ მუნიციპალიტეტთან კომუნიკაცია მოახერხოს.

გაესაუბრა: აინურა ალიევა
აზერბაიჯანულ ენიდან თარგმანი:
აინურა ალიევა

# MÜƏLLİMLƏR İMTAHANDA NƏYİ NƏZƏRƏ ALMALIDIRLAR?

2019-cu ilin müəllimlər imtahanı artıq başlayıb. "Etaloni.ge" saytı Milli Qiymətləndirmə və İmtahanlar Mərkəzinin nümayəndəsi Maia Qabunia ilə söhbət aparıb və o, aplikant müəllimlərin imtahanı ilə bağlı məsləhətlər verib.

**– İmtahan mərkəzlərinin yerləri ilə bağlı hansısa dəyişikliklər varmı?**

– İmtahan mərkəzləri yenə də ötən il olduğu şəhərlərdə olacaq. Yalnız Xulo regionunda imtahan mərkəzi əlavə olunub. Ötən il orada təmir işləri aparılırdı və imtahan keçirilmədi. Həmçinin Batumidə də imtahan mərkəzi əlavə etmişik. Başqa heç nə dəyişməyib.

**– İmtahan prosesində müəllimlər nəyə diqqət etməlidirlər?**

– Siz bilirsiniz ki, imtahan üçün aplikantın yetərli vaxtı var və demək olar ki, bütün imtahanlar 5 saat davam edir. Vacibdir ki, bu vaxt ərzində aplikant düzgün cavabları cavab vərəqəsinə yazsın. Çünki test elektron formadadır və skanerlə yalnız cavablar vərəqəsi düzəldilir. Həmçinin vacibdir ki, cavabları məsələlərə uyğun olaraq vərəqəyə düzgün yazsınlar və ən əsası heç yerə kimlik bildirən əlamət və ya adlarını qeyd etməsinlər.

Abituriyent, magistratura, müsabiqə və müəllimlər imtahanı üçün qeydiyyatdan keçmiş namzədlər kartlarında qeyd olunan imtahan mərkəzlərinə getməlidirlər.

Kimlik kartında imtahan günü, saatı və yeri qeyd olunub. Məhz buna uyğun olaraq aplikantlar imtahan mərkəzlərinə getməlidirlər. Nəzərə almalıdırlar ki, qeydiyyata gecikənləri imtahana buraxmayacaqlar.

**– Çox hallarda imtahandan çıxan aplikantlar açıq suallarla bağlı narazılıqlarını bildirirlər. Onların dediyinə görə, suala düzgün cavab verirlər, ancaq yenə də hesab olunmur. Belə hallarla bağlı aplikantlara hansı məsləhəti verərdiniz, açıq suallara cavab verən zaman nəyi nəzərə almalıdırlar?**

– Bu suala cavab vermək daha çox fənn qrupunun rəhbərinə aiddir, ancaq hər hansı halda imtahan başa çatdıqda biz veb-səhifəyə testləri və müvafiq qiymətləndirmə sxemini yerləşdiririk. Məndə olan məlumata görə, illər ərzində belə olurdu və qiymətləndirmə də bu sxemdən dolayı baş verir, ancaq konkret hallar varsa bu haqda qrup rəhbəri ilə söhbət etmək daha düzgün olardı.

**– Müəllimlər imtahanının dinləmə hissəsi ilə bağlı soruşmaq istəyirəm. Çox hallarda aplikantların əksəriyyəti səsin keyfiyyətinin pis olmasına görə qeydlərin yaxşı yazılmadığını deyirlər. Bu zaman aplikant nə etməlidir və elə hallar olubmu ki, oxşar texniki səhvə görə dinləmə hissəsi yenidən keçirilsin?**

– Belə hallar olan zaman bizə müraciət edirlər və qeyd yoxlanılır. Əgər hansısa texniki səhv varsa biz düzəldirik və qeyd təkrar hazırlanır. Ancaq sektorda 15 aplikantdan yalnız bir nəfəri deyirsə ki, səs pis eşidilirdi və 14 nəfər



etiraz etmirsə, bu o deməkdir ki, problem yox imiş. Əgər əksəriyyət deyirsə ki, səs pis eşidilirdi, hansısa texniki səhv var idi və sair, təbii ki, biz düzəldirik. Ancaq bu, nadir hallarda olur.

Texniki, eləcə də adi aplikasiya var və aplikantın yazdığı işə tikilir. Əgər hansısa səhv olursa, yaxud nəsə düzgün baş verməzsə hər hansı aplikant bizə aplikasiya ilə müraciət edə bilər. Bütün sektorlarda məhz buna görə video kamera montaj edilib ki, hər şeyi qeydə alsın.

**– Demək olar ki, bütün fənlərə imtahan üçün 5 saat vaxt ayrılıb. Maraqlanırıq ki, bu vaxt qeyd olunan imtahan üçün nə dərəcədə adekvatdır. Necə hesab edirsiniz, bir fənn imtahanı üçün bu vaxt çox, ya az deyilmi?**

– Testin vaxtını müəyyən edənə kimi yetərli dərəcədə prosedurlardan keçirik. Hər hansı fənn imtahanının vaxtı məsləhətləşmələr nəticəsində təyin olunur. Şəxsən mənim üçün 5 saat çoxdur.

# DÜNYANIN KEYFİYYƏTLİ TƏHSİL VERƏN ƏN UCUZ UNİVERSİTETLƏRİ

*Xaricdə təhsil almaq istəyinə baxmayaraq tələbələr çox vaxt bunu əlçatmaz hesab edirlər. Amma müasir xarici təhsil müəssisələrinin rəngarəngliyindən dolayı xaricdə keyfiyyətli, həmçinin əlçatan təhsil almaq tam realdır.*

*Dünyada qiymətlərinə görə əlçatan bir çox universitet var və orada keyfiyyətli, prestijli təhsil almaq mümkündür.*

*"Etaloni.ge" saytı ingilis dilli proqramlarla ucuz və məşhur xarici universitetləri sizə təqdim edir:*

**TU Dresden, Almaniya**

Drezden Texniki Universiteti – bu, Almaniyanın ən böyük və tanınmış ali təhsil müəssisəsidir. Burada təqribən 40 000 tələbə təhsil alır. Universitetdə 14 fakültə var, tələbələrin əksəriyyəti Drezdenin mərkəzində tarixi binalarda təhsil alır.

Tələbələrə universitetdə müxtəlif fənlər üzrə təhsil almağı təklif edirlər, həmçinin filologiya, tarix, dəqiq elmlər, pedaqogika, iqtisadiyyat, hüquq, maşınqayırma, mühəndislik, arxitektura, nəqliyyat, kənd təsərrüfatı və tibb üzrə təhsil almaq mümkündür. Təhsilin semestr qiyməti 500 avrodur.

**KAIST, Cənubi Koreya**

Koreya Qabaqcıl Elmlər və Texnologiyalar İnstitutu (KAIST) Cənubi Koreyanın aparıcı elmi-texnoloji araşdırma üzrə ali təhsil müəssisəsidir. Ölkənin texnoloji və tərəqqisi, potensialı bu instituta çox bağlıdır.

Tələbələrə burada çoxsaylı proqramlar, həmçinin mübadilə proqramları və xaricdə təcrübə keçmək təklif edilir. KAIST bütün bunları dünyanın aparıcı universitetləri ilə əməkdaşlıqla həyata keçirir.

Təhsil müəssisəsi 5 kollecdən ibarətdir ki, 5-i də tələblərə ingilis dilli tədris proqramı təklif edir. KAIST-də mühəndislik, kompüter elmləri, biologiya, biomühəndislik, təbiətşünaslıq və humanitar elmlər, mədəniyyət, biznes, idarə və maliyyə üzrə təhsil almaq mümkündür. Təhsilin illik qiyməti 3,200 ABŞ dollarıdır.

**KU Leuven, Belçika**

Löven Katolik Universiteti 15-ci əsrdə təsis edilib və Belçika və bütün Avropanın ən böyük və prestijli tədris müəssisəsi olaraq hesab olunur.

Bu gün universitetin kampusunda 56 000 tələbə təhsil alır. Onların 16%-i 150-yə qədər ölkədən gəlmiş xaricilərdir. KU Leuven-də 16 fakültə üzrə təhsil almaq mümkündür: hüquq, iqtisadiyyat, biznes, filologiya, teologiya, psixologiya, ictimai elmlər, incəsənət, təbiətşünaslıq elmləri, arxitektura, tibb, etika və s. Bundan əlavə, universitetin laboratoriyalarında dünya səviyyəsində araşdırmalar aparılır. Təhsilin semestr qiyməti 922 avrodur.

**Brigham Young University - Idaho, ABŞ**

ABŞ-ın Briqam Yanq Universiteti yerli və xarici tələbələrə əlçatan təhsil və universitetdə tələbələrə çox sayda sertifikat proqramları təklif edir.

Universitetdə müxtəlif disiplinlərin – linqvistikadan, pedaqogikadan tutmuş biznes və kənd təsərrüfatına qədər öyrənmək olar. Təhsilin illik qiyməti 3,750 dollardır.

**Montanuniversität Leoben, Avstriya**

Leoben Universiteti Avstriyanın tarixi şəhəri Leobendə yerləşir. Universitet Avstriyanın ən yaxşı texniki universitetlər assosiasiyası TU Austria-ya daxildir və tələbələrə dağ-metallurgiya sahəsində, riyaziyyatda, informasiya texnologiyalarında, elektronika, mexanika, iqtisadiyyat və s. sahələrdə keyfiyyətli təhsil təklif edir. Təhsilin semestr qiyməti 726 avrodur.

# AZƏRBAYCAN DİLLİ MƏKTƏBLƏRDƏ YENİ DƏRSLİKLƏRİN TƏTBİQİ TƏXİRƏ SALINIB



Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin məlumatına əsasən, Azərbaycan dilli məktəblərdə yeni dərsliklərin tətbiqi təxirə salınıb.

Ölkənin gürcü dilli məktəbləri üçün 13 fənn üzrə 34 yeni dərslik 2019-2020-ci tədris ilinə qədər nəşr olunacaq. I-IV və V-VI siniflər üçün nəzərdə tutulan dərsliklər yeni tərtibatda hazırlanıb. Dərsliklər yeni tədris ilinin başlanmasına qədər çap olunaraq bütün məktəblərə paylanacaq.

Həmin dərsliklər 2020-ci ildə Azərbaycan, erməni və rus dillərinə tərcümə olunacaq. Tərcümə olunmuş dərsliklərin qeyri-gürcü dilli məktəblərdə tətbiqinə isə 2020-2021-ci tədris ilində başlanacaq.

Qeyd edək ki, Gürcüstanda qeyri-gürcü dilli məktəblərin I-VI sinifləri üçün yeni milli plana uyğun hazırlanmış dərsliklərin 2019-2020-ci tədris ili üçün nəşr olunacağı nəzərdə tutulurdu.

**Səhifəni hazırladı: Aynurə Əliyeva**

# FRİDRİX BODENŞTEDTİN "ŞƏRQDƏ MİN BİR GÜN" ƏSƏRİ GÜRCÜ DİLİNDƏ

Gürcü yazıçısı və tərcüməçisi Akaki Qelovani 1923-cü ildə anadan olmuşdur. 14 yaşında ikən onun ilk əsərləri dərc olunub. Mestiya Pedaqoji Texnikumunu bitirəndən sonra Tbilisi Dövlət Universitetinin filologiya fakültəsində təhsilini davam etdirmişdir. 1953-cü ildən onun şeirləri, hekayələri və romanları müntəzəm şəkildə dərc olunmağa başlayır. İlk kitabı Henrix Heynenin "Seçilmiş lirikası"nın tərcüməsi 1954-cü ildə nəşr olunmuşdur. "Svan balladası" (1963), "Epiqramlar" (1966) şeirlər toplusu, "Külə dönmüş şöhrət" (1961), "Şopenin ürəyi" (1961), "İşıq sütunu" (1965), "Tetnulday", (1971), "Svanetinin ağ papağı" (1976) romanlar, hekayələr və sair əsərlər onun qələminə məxsusdur. O, eləcə də İ.Höte, F.Şiller, H.Heyne, H.İbsen, S.Svayq, A.Qrifius, Apolonios Rodisel və başqalarının əsərlərini tərcümə etmişdir.

Onun dünya incəsənəti korifeyləri barədə yazdığı "Əbədi yaşar incəsənət" kitabı diqqətə layiqdir (1996). Akaki Qelovaninin şəxsi arxivi Milli Əlyazmalar Mərkəzində qorunub saxlanılır. Arxivi onun törəmələri 2009-cu ildə mərkəzə ianə ediblər. 1983-cü ildə onun tərəfindən geniş tərtib olunmuş "Mifologiya lüğəti" mühüm və çox vacib əsərdir. Burada müxtəlif dinlərlə əlaqədar məsələlər və terminlər asan və anlaşıqlı dil ilə izah olunub. Bu kitab geniş oxucu kütləsi üçün və məsələ ilə maraqlanan insanlar üçün nəzərdə tutulub. Akaki Qelovani bir sıra esse, oçerk, populyar broşüraların müəllifidir. Onun "Hucabi – Gürcü məbədi" hekayəsi beş dilə tərcümə olunmuşdur.

Akaki Qelovani 1996-cı ildə dünyasını dəyişmişdir.

Maraqlı haldır ki, onun gürcü dilinə tərcümə etdiyi və ön söz yazdığı tanınmış alman yazıçı və alimi Fridrix Bodenştedtin "Şərqdə min bir gün" əsəri 1965-ci ildə nəşr olunmuşdur.

Fridrix Bodenştedtin adı ilə sıx bağlı olan Azərbaycanın klassik şairi Mirzə Şəfi Vazeh barəsində Akaki Qelovaninin kitaba yazdığı ön sözün azərbaycanlı oxucular üçün maraqlı olacağını nəzərə alaraq tərcümə edib sizin ixtiyarınıza verirəm.

Hörmətlə: Mirzə MƏMMƏDOĞLU

*(əvvəli ötən sayda)*

Bodenştedt heç də nəhəng adam deyildir. Heç bir millətin ədəbiyyatı təkcə nəhənglərdən ibarət deyildir. Lakin onun çoxcəhətli ədəbi irsi ilə hesablaşmaq lazımdır. Onun poetik, daha artıq tərcüməçilik istedadı və xidməti alman ədəbiyyatında məşhur bir şəxsə çevirir və müəyyən dərəcədə heç bir geniş icmalda, ensiklopediyada, istərsə də axtarışlarda onun soyadından yan ötmürlər. Gəncəli müdrikin hanoverli oxşarı barədə bol ədəbiyyat mövcuddur. Müxtəlif fikir ayrılığı var .Əgər bir qrupun fikrincə, epiqon və orta istedada malik plagiatrdırsa, başqaları "parlaq lirik" və "qüsursuz tərcüməci"adlandırırlar. Üçüncülər – Yalnız züy tutmağı bacaran, heç bir zaman, heç bir diyarda yaxşı ilə pisi seçə bilməyən ciddilər də, mənasız işlərlə məşğul olan tənqidçiyəzlər də susurlar. Əgər bir qrup "Almaniyanın Parnasında yaşayanları" "müdrik şərqli epikurlü" adlandırırdılarsa, həmin şeirlərin yeganə müəllifi hesab edirdilərsə, hansıları da Varşavanın qəzetlərindən birinin dediyinə görə, "bütün millətlər öz xəzinəsinin mülkiyyəti olaraq hesab edirdi", əvəzində başqa tədqiqatçılar – Foqt, Kox, Noiman-Hofer, Biber, Ernst Tsil ən çox dünyəvi iqamətgaha göçürürlər. Onlardan biri Kurt Zundermayerin uyğun sözünə görə, tale ona ən böyük xoşbəxtlik bəxş etmişdir ki, öz ömründə bir dəfə hər halda tamamilə lazımı yerə düşə idi". Bu barədə onu qeyd etməliyik ki, istedadsız usta min bardaqdan birini də xeyirli hazırlaya bilməz və öz yerinə düşməklə işi də görmək ustad əlini tələb edir.

Məlumdur ki, Bodenştedtin fərqli poetik istedadı barədə söhbət Sizifin iri daşları ilə qurşaq tutma olardı, nəsil ədalətli olmalıdır. Mirzə Şəfinin müdafiəçiləri Bodenştedti nahaqdan ümidsiz irticaçı bəyan edirlər. Mirzə Şəfinin kəskin satiralarını heç də tərcümə etməzdi, nə də alman tənqidçilər IV Fridrix –Vilhelmin ziddinə (Kurt Zundermayer) yönəldilmiş hesab etdikləri bir mübahisəli epiqramın yazdığını onun adına yazmazdılar. Onun burjua mənəviyyatını və mötədilliyini heç kim inkar etmir, lakin onun yazılarında və tərcümeyi-halında heç bir irticaçılıq görmürük. Onun kitablarına həddindən artıq humanist, insan və təbiət sevgisi hopmuşdur, oxucunu azadlığa doğru çağırır, həyatın böyük hissəsini Lermontov, Turgenev, Nekrasov... kimi şairlərin tərcümə olunmasına həsr etmişdir. Məşhur əsərində Lermontovu üsyançı şair kimi qələmə vermişdir, Gertseni şəxsən tanıyırdı, Nekrasovla, Tutçevlə, Turgenevlə yazışırdı. On illər ərzində Avropanın mərkəzində mütərəqqi rus ədəbiyyatının populyarlaşdırılmasına xidmət edirdi, bütün xalqlara hörmət bəsləyirdi. İrticaçılar başqa yol ilə gedirlər. Doğrudur, mömindir, lakin David Quramişvili də mömin idi. Onun pessimist sızıltısı məlumdur, lakin müharibəni və qırğını necə pisləyirdi, o da məlumdur. Petefi kimi barrikadalarda, Kerner kimi döyüş meydanında həlak olmayıb, lakin bunun Mirzə Şəfinin tərcümələri ilə heç bir əlaqəsi yoxdur. Onun qara sevdası əməyində itir.

Əgər Bodenştedtin orijinal əsərləri mübahisəyə çevrilibsə, onun tərcümələri barədə isə fikir heç də mövcud deyildir. Məşhur tədqiqatçı İohan Şerri və demək olar ki, bütün digər tənqidçilər də adları ilə də Almaniyanın qürur duyduğu tərcüməçilər arasında onun da adını çəkirlər. Onun lakonikliyini, zərifliyini, ritmini, alman şairinin istədiyiniz ritmi ilə yanaşı qoya bilərik. Buna elə orijinal əsərlərində səpələnmiş mübahisəsiz güclü təsvirləri, Qafqaz və Gürcüstan təbiətinin mənzərələri, Mirzə Şəfinin səmimi olaraq çəkilmiş siması, əfi ilanın – qızdırmanın gizləndiyi Kolxeti bataqlığının müdhiş peyzajı, bu bataqlığın qurudulması barədə ki bizim dövrdə həyata keçirildi - və sizin gözünüz önündə dayanacaq yazıçı, şair, bizim ölkənin təmənnasız dostu ki, bu da özünün azdırmasını xeyirxah iş ilə satın alıb. Belə idi. Bodenştedt və bizim xalqın yaddaşında beləcə də qalmasını istəyirdik. Budur, şair Gürcüstana qayıdır, daha bir dost, artıq gürcü dilində danışan dost.

* * *

Təbiidir ki, bu kitabda gürcülərin dostu, böyük Azərbaycan şairi və maarifçisi Mirzə Şəfiyə əhəmiyyətli dərəcədə yer ayırdıq. Belə ki, Mirzə Şəfi həyat və yaradıcılığının böyük, daha çox səmərəli hissəsini Tiflisdə keçirmiş və öz yaradıcılığını da belə qardaş millətlərin adlı-sanlı oğulları kimi, o cümlədən Mirzə Fətəli Axundov kimi dərin şəkildə bizim gerçəkliklə bağlamışdır. Onsuz da qeyri-adi haldır ki, bu günə kimi lirikasını, budur, yüz ildən artıqdır ki, bütün Avropanın tanıdığı, "Tiflis ilə əlvida"nın müəllifi bizim dilimizə tərcümə olunmamışdır.

İndi Mirzə Şəfi üçüncü dəfə öz sevimli, Hafizin Şiraza etdiyi kimi, məqsədi yenə də şöhrətləndirmə olduğu Tiflisinə qayıdır.

Leninqradın (indiki Sankt-Peterburq-M.M.) Şərqşünaslıq İnstitutunda aşkar edilən bir gözəl əlyazması və şair Mirzə Mehdinin (Naci) toplusuna daxil olan beş şeirdən başqa Mirzə Şəfinin, demək olar ki, heç bir əsli, orijinalı aşkar edilməmişdir. Odur ki, bizim üçün də orijinal olaraq Bodenştedtsayağı alman cildi qalırdı və elə buradan da gürcü tərcüməsi yerinə yetirildi.

Mirzə Şəfinin müdrik şeirləri – aforistik danışıq inciləridir. Biz də, başlıcası olaraq, bu şeirləri və satiraları seçdik.

Mirzə Şəfinin fəaliyyəti nəğmələrlə bitmir. Elə o, əla "Müntəxəbat"əsərini tərtib etmişdir ki, bu da Təbrizdə nəşr olunmalı idi, lakin onun əməkdaşı Qriqoryev bunun bir hissəsini nəşr etməyə müvəffəq oldu, o da Mirzə Şəfinin ölümündən sonra.

Bu müntəxabat da həqiqi "müdriklik məktəbi"dir, dərin düşüncənin və böyük canfəşanlığın bəhrəsidir. Onun tərtibçisinin bir neçə müdrik kəlamını yoxlamaq kifayətdir ki, bu da qismən Bodenştedt tərəfindən tərcümə olunmuş – üzü köçürülmüş nəğmələrin də açarlarını verir: "Ağıllı düşmən ağılsız dostdan artıqdır", "İlan vuran ala çatıdan qorxar", "Yatan oyağı heç vaxt anlaya bilməz", "Atın ölümü itlərin bayramıdır", "Dəmiri yalnız dəmir kəsər", "İki qılınc bir qına qoyula bilməz", "Kasıb adamın hədiyyəsi ən qiymətli hədiyyədir", "Ən çətini insanın özü özünü tanımasıdır", "Canlı it ölü aslandan artıqdır", "Alimin bir günü nadanın bütün ömründən artıqdır", "Deyənə baxma, deyilənə bax", "Müstəbid ölüdür, halbuki, diridir", "Dəlilik hirsin başlanğıcıdır", "Bu dünya cahillər üçün şirindir, ağıllılar üçün acı", "Şüuru qorxunun üstələdiyi yerdə insan həlak olur", "Cahil özünün düşmənidir, başqasının dostu necə ola bilər", "Hirsini cilovlayan kəs ən güclüdür", "İgidlik savaşda bilinir, müdriklik - hirslikdə, dostluq-çətinlikdə"...



Şair Mirzə Şəfi müdriklik sözü ilə müsibətə qarşı belə mübarizə aparırdı. Onun müdrik poeziyası dahi Rustavelinin "Şeir söyləmək lap başdan müdrikliyin bir sahəsidir" proqram sözünün daha bir poetik illüstrasiyasıdır.

Böyük satirik əmindir ki, onun yolu aydındır və doğrudan da bütün işlərdə onun fikri aydındır. Əgər böyük Hafiz "Əyyaşın qüsurunu demə, mənim şirin-şəkkərim, gözəlim" buyururdusa, Mirzə Şəfi bildirir: "Şərabın qədrini şərabı su kimi içən bilməz".

Gəncəli müdrik həyatda taleyinə görə zülmə məruz qalmışdı. Müstəbidlərin hökmranlığı dövründə şair daim üsyançı olub. Zamana dözə bilmirdi, çətin nəfəs alırdı, ağır şeylərin batdığı bataqlıqda olduğu kimi. Yüngüllər isə onun səthində süzürlər. Gələcəyin ümidi onun nikbin poeziyasında sönür, lakin həddən artıq ümumi və müdrik idi bu ümid, zəifcəsinə sayrışan və dumanlı, dar pəncərədən içəri soxulan, yeyilməmiş qalan salxım dənələrinə düşən günəş şüası kimi. Bu gün qanuni pyedestalda dayanan xoşniyyət və boy-buxunlu gəncəli müdrik sanki belə qəribə halda dəyişən Tiflisi rahatca seyr edir və gözü yaşlı öz-özünə danışır: "Bütün bunlar yaxşıdır, şərab da yaxşıdır, saraylar da və şan-şöhrət də, lakin mənim savadlı şagirdimə inciləri oğurlayan adı verirsiniz? Sizinlə müdrikcəsinə danışmıram! Oğurlamayıb, özüm ona hədiyyə etmişəm! Yumşaq ürəkli olun, ey insanlar!"

Deməli, Bodenştedtə qarşı yumşaq ürəkli olaq, gəncəli müdrik Mirzə Şəfinin özü isə zəngindir. Müdrikliyi və səbri ilə fərqlənən şairə mərhəmət lazım gəlmir.

***Fridrix Bodenştedtin "Şərqdə min bir gün"əsəri, "Sabcota Sakartvelo", Tbilisi, 1965***

***Gürcü dilindən tərcümə edən: Mirzə MƏMMƏDOĞLU***

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI 15 İYUL 2019-CU İL/ №013 (93)

# Yeni YOL

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | იენი იოლი საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

Durmuşov Samir

böyrək xəstəliyindən əziyyət çəkir.

Həyatı təhlükədədir və xalqın dəstəyinə ehtiyacı var.



Dəstək olmaq üçün bənk hesabı:

Adı: MURGUZOVA ZARGALAM
Kod: GE29BG0000000160979451

ᲡᲐᲥᲐᲠᲗᲕᲔᲚᲝᲡ ᲑᲐᲜᲙᲘ BANK OF GEORGIA

əlaqə nömrəsi:
558 470 770

## SÜRÜCÜLÜK VƏSİQƏSİNİ ALMAQ ÜÇÜN ÖDƏNİLƏN MƏBLƏĞ ARTIR



"Yol hərəkəti haqqında" qanunda planlaşdırılan dəyişikliklər nəticəsində sürücülük vəsiqəsini almaq üçün ödənilən məbləğ artır. Qanunvericilik paketi artıq parlamentə təqdim olunub.

Dəyişikliklər nəticəsində nəzəri imtahan üçün ödənilən rüsum 40 lari əvəzinə 20 lari olacaq, ancaq praktiki imtahan çətinləşəcək və rüsum artırılacaq. Praktiki imtahan iki mərhələli olacaq və vətəndaşlar əvvəl daxili meydanda, sonra isə real hərəkətdə imtahan verməli olacaqlar.

Layihəyə əsasən, mexaniki və avtomatik ötürücü qutusu olan nəqliyyat vasitələrində imtahan qiymətləri bərabərləşəcək. Nəticədə hər iki halda imtahan vermək daxili meydanda 40 lari olacaq.

"Əgər indiyə kimi nəzəri imtahanın dəyəri 40 lari idisə, indi 20 lari olacaq. İmtahan nəticələrinin qüvvədə olduğu müddət 1 aydan 1 ilə qədər uzadılır. Praktiki imtahanda isə yeni mərhələ yeni qiymət siyasəti gətirir. "B" kateqoriyasının sürücülük vəsiqəsi üçün ödəniləcək rüsum 90 lari, başqa kateqoriyalar üçün isə 150 lari olacaq.

Qapalı meydançada imtahan vermək üçün, bilirsiniz ki, avtomatik və mexaniki ötürücüsü olan nəqliyyat vasitələrinə fərqli tariflər qüvvədədir. Təqdim olunan dəyişikliklərə əsasən, qiymətlər bərabərləşəcək və imtahanı qapalı meydanda vermək üçün avtomatik və mexaniki ötürücüsü olan avtomobillər üçün hər cəhd 40 lari olacaq. Qapalı meydanda imtahan verdikdən sonra sürücülər real yol şəraitində imtahana buraxılacaq. Hər imtahana giriş üçün ödənilən məbləğ kateqoriyasına əsasən 90 və ya 150 lari olacaq", - deyə xidmət agentliyinin direktoru Mariana Morqoşia bildirib.

Onun dediyinə görə, real hərəkətdə praktiki imtahan zamanı sürücülər təqribən 20 kilometr məsafədə avtomobili idarə etməlidirlər.

"Belə marşrutlar bütün xidmət mərkəzlərinin yaxınlığında qurulacaq. Dörd marşrut artıq müəyyən edilib və sürücü olmaq istəyənlər konkret hansı marşrutun seçiləcəyini bilməyəcəklər. İlk mərhələdə "B" kateqoriyasının sürücülük vəsiqəsini almaq üçün Zuqdidi və Potidən başqa bizim bütün xidmət mərkəzlərimizdə imtahan vermək mümkün olacaq. Çünki bu şəhərlərdə geniş miqyaslı infrastruktur işləri aparılır və real yol məkanında imtahan vermək üçün şərait yoxdur. İşlər başa çatan kimi imtahanın ikinci mərhələsində marşrutlar orada da planlaşdırılacaq. Sürücülük vəsiqəsinin başqa kateqoriyalarını isə ilk mərhələdə Qərbi Gürcüstanda – Kutaisidə, Şərqi Gürcüstanda isə Rustavidə almaq mümkün olacaq", - bildirib M.Morqoşia.

## GÜRCÜSTANDA İNTİHAR HALLARI ARTIB



Son illər Gürcüstanda özünəqəsd və intihar halları artıb. Bu barədə Gürcüstanın Hüquq Müdafiəçiləri Birliyinin sədri Nikolaz Mjavanadze ölkənin Daxili İşlər Nazirliyinə (DİN) istinadla məlumat yayıb. Onun sözlərinə görə, Hüquq Müdafiəçiləri Birliyi ölkədə son 8 ildə intihar hallarının statistikası ilə bağlı DİN-ə müraciət edib. Əldə olunan məlumatlarda deyilir ki, 2011-ci ildən 2018-ci ilədək ölkədə 2905 nəfər intihar edib. Statistikaya görə, ən çox intihar 2016-cı ildə qeydə alınıb – 469 hal. Özünəqəsd hallarının təhlükəli həddə çatdığını vurğulayan sədr deyib ki, hər il qeydə alınan intiharların sayı 365-dən çoxdur. İntihar halları ən çox paytaxt Tbilisidə, Sameqrelo və Acarıstan regionlarında baş verib. İntihar edənlər ən çox 23-50 yaş arasında olublar. Son dövrlər 16-20 yaş qrupundan olan gənclər arasında intihar hallarının artdığı müşahidə edilir.

Hüquq müdafiəçisi deyib ki, intihara ən çox ağır sosial-iqtisadi şərait səbəb olub. Sədr çox maraqlı bir fakta da toxunaraq bildirib ki, BMT Gürcüstanı "təhlükə altında olan" millətlərin siyahısına daxil edib. O deyib: "2050-ci ildə biz çox ağır vəziyyətdə olacağıq. Amma ağır vəziyyət bizi daha tez haqlaya bilər. Miqrasiya artır, intihar hallarının da artması vəziyyəti daha da ağırlaşdırır".

Qeyd edək ki, BMT-nin İqtisadi və Sosial məsələlər Departamenti 2016-cı ildə Gürcüstanı "təhlükə altında olan" və "dili məhv olan" millətlər siyahısına daxil edib. Hesabatlara görə, 2050-ci ildə Gürcüstan əhalisinin sayı 28 faiz, etnik gürcülərin sayı isə 2 dəfə azalacaq. Sovet dövründə aparılmış siyahıyaalınmaya görə, 1989-cu ildə Gürcüstan əhalisinin sayı 5 milyon 400 min nəfər olub. 2014-cü ilin hesabatına görə isə əhalinin sayı 3,7 milyon nəfərə qədər azalıb.

## DÖVLƏT İDARƏLƏRİNDƏ RÜŞVƏTALMA FAKTLARI ARTIB



Gürcüstan Daxili İşlər Nazirliyinin məlumatına əsasən, bu ilin yanvar-may aylarında dövlət qurumlarında 36 rüşvətalma faktı qeydə alınıb.

İllik müqayisədə rüşvət hallarında 56,52% artım qeydə alınıb. Ötən ilin yanvar-may aylarında dövlət qurumlarında 23 rüşvətalma halı baş verib.

Hesabat dövründə 127 məmur vəzifə səlahiyyətlərini aşıb, 38-i xidməti vəzifəsindən sui-istifadə edib. Vəzifə səhlənkarlığı ilə bağlı 28, xidməti saxtakarlıqla bağlı isə 14 fakt olub.

## AVTOMOBİLLƏRİN GÖMRÜK RƏSMİLƏŞDİRİLMƏSİ VƏ QEYDİYYATI EVDƏN ÇIXMADAN MÜMKÜN OLACAQ




Avtomobilin gömrük rəsmiləşdirilməsi və qeydiyyatı evdən çıxmadan mümkün ola bilər. Bu haqda Daxili İşlər Nazirliyinin Xidmət Agentliyinin rəhbəri Mariana Morqoşia bildirib. Agentlik məsafəli xidmətlərin təsis edilməsi məqsədi ilə geniş miqyaslı layihələr üzərində çalışır.

"Biz bütün xidmətləri maksimum dərəcədə məsafəli etməyə çalışırıq. Bu istiqamətdə geniş miqyaslı layihə aparılır. Məsələn, çalışırıq ki, avtomobilin gömrük rəsmiləşdirilməsi və qeydiyyatını vətəndaş evindən çıxmadan apara bilsin", - deyə Mariana Morqoşia bildirib.

## PUTİNİ SÖYƏN JURNALİST 2 AY MÜDDƏTİNƏ VƏZİFƏSİNDƏN UZAQLAŞDIRILIB



"Rustavi 2" televiziya kanalının aparıcısı Giorgi Qabunia iki ay müddətinə vəzifəsindən uzaqlaşdırılıb. Bu barədə kanalın rəhbərliyi qərar qəbul edib.

Qərara əsasən, G.Qabuniaya qarşı tətbiq olunan məhdudiyyət onun müəllifi və aparıcısı olduğu bütün proqramlara şamil olunub.

Qeyd edək ki, G.Qabunia aparıcısı olduğu "Postskriptum" verilişində Rusiya prezidenti Vladimir Putinin və onun valideynlərinin ünvanına rus dilində qeyri-etik ifadələr işlədib, söyüş söyüb. Bundan sonra televiziya kanalının qarşısında kanalın rəhbərinin və jurnalistin istefası tələbi ilə etirazlar təşkil edilib.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər Musaoğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu
Qrafik dizayn:
Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.